# Qobustan: 2015-ci il mühüm göstəricilər, əlamətdar tədbirlərlə yadda qaldı

***"Xatırladaq ki, Qobustan şəhəri 2008-ci ildə bir kənd və bir qəsəbənin birləşməsi nəticəsində yaradılıb. Yəni, burada heç bir zaman vahid su şəbəkəsi və kanalizasiya sistemi olmayıb. Prezidentin bütün bölgələrə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir ki, artıq Qobustan şəhərində ümumi dəyəri təxminən 73 milyon dollar olan su şəbəkəsinin və kanalizasiya layihəsinin icrasına başlanılıb. Bu layihənin icrası 2017-ci ilin sonunadək yekunlaşacaq. Dünyanın böhranlı bir vəziyyətində Qobustan rayonuna göstərdiyi böyük diqqət və qayğıya görə bütün rayon ictimaiyyəti adından cənab Prezidentə dərin minnətdarlığımızı bildiririk".***

Etiraf edim ki, Qobustan Rayon İcra Hakimiyyəti başçısı Adil Məmmədovun 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon toplantısındakı hesabatından eşitdiyim bu faktı indiyədək bilmirdim. Yəni, hansısa rayon mərkəzinin vahid su və kanalizasiya şəbəkəsinin olmadığı barədə təsəvvürüm belə yox idi. Şahidi olduğumuz inkişaf tendensiyası bu qəbildən olan problemlərin hamısını aradan qaldırır.





Adil müəllim qeyd etdi ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Qobustan rayonunda 15 istiqamət üzrə 18 tədbirin həyata keçirilməsi nəzərdə tutulur. Tədbirlərdən 11-i qismən icra edilib, 2-nin icrası yaxın vaxtlarda tam başa çatdırılacaq. 1 tədbirin icrasına yaxın vaxtlarda başlanması nəzərdə tutulur, digər tədbirlərin icrası davam etdirilir.



Rayonda son illərdə yol təsərrüfatı sürətlə inkişaf edir. Prezident İlham Əliyevin sərəncamına əsasən tikintisinə başlanılmış, ümumi uzunluğu 17250 metr olan, 15 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Təklə-Sündü-Xilmilli avtomobil yoluna birinci lay asfalt örtüyü vurulub, 23 su ötürücüsü və 9 dayanacaq quraşdırılıb. Yolun tamamlanması üçün "Qobustan rayonunun Təklə-Sündü-Xilmilli avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin bu ilin fevralında imzaladığı sərəncama əsasən "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinə 700 min manat vəsait ayrılıb.

Beş yaşayış məntəqəsinin və 5 minə yaxın əhalinin istifadə etdiyi Qobustan-Poladlı yolunun tikintisi "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na daxil edilib. Qobustan şəhərində ötən il 14 min kvadratmetrdən artıq yola asfalt örtüyü vurulub. Növbəti aylarda da şəhərdə asfaltlanma işləri davam etdiriləcəkdir. Rayonun daxili imkanları hesabına Şıxzahirli kəndinə gedən 3 kilometrlik yol əsaslı təmir edilərək sakinlərin istifadəsinə verilib. Ərəbqədim kəndində yolun cari təmiri işləri aparılıb.

Rayon rəhbərinin fikrincə, Qobustanın mədəni və iqtisadi həyatına daha ciddi təsir göstərəcək layihələrdən biri də "Polad Yol Yapı" Anonim Şirkəti tərəfindən icrası həyata keçirilən Bakı-Şamaxı yolunun 4 zolağa genişləndirilməsidir. Podratçı şirkətin təcrübəli olması işin sürətli və keyfiyyətli görülməsini təmin edir. Artıq yolda işlərin böyük bir hissəsi yekunlaşmaq üzrədir. Onu da qeyd edək ki, bu yolun əksər hissələrinin istifadəyə verilməsi yol nəqliyyat hadisələrinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olub.

Hesabatda eşitdik ki, 2015-ci ildə rayon iqtisadi inkişaf göstəriciləri ilə seçilib. 2014-cü illə müqayisədə ümumi məhsul buraxılışı 13,7 faiz, kənd təsərrüfatı məhsulunun həcmi isə 23,5 faiz artıb. Ümumi məhsul istehsalında qeyri-dövlət sektorunun xüsusi çəkisi 96,4 faiz təşkil edir. Bitkiçilikdə bu artım 3 dəfə, heyvandarlıqda 2,3 faiz, ticarətdə 12 faiz, rabitədə 9 faiz, nəqliyyatda 8,1 faiz təşkil edib. Ötən il rayonda pərakəndə əmtəə dövriyyəsi 10,9 faiz, pullu xidmətlər 17,9 faiz, iaşə xidməti 13,4 faiz çox olub. Əsas kapitala yönəlmiş investisiyalar 15,7 faiz, o cümlədən tikinti quraşdırma işlərinin həcmi 18 faiz artıb.

Dövlət başçısının rayon icra hakimiyyətləri qarşısında qoyduğu əsas məsələlərdən biri də hər bir rayonun özünü maliyyələşdirməyə nail olmasıdır. Bununla əlaqədar olaraq Qobustan Rayon İcra Hakimiyyətində müvafiq komissiya yaradılıb, mövcud büdcənin bütün tədiyyə növləri üzrə icrası vəziyyəti təhlil edilir, rayonun dotasiyadan asılılığının aradan qaldırılması üçün ehtiyatların aşkar olunması, yeni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə araşdırmalar aparılır. Rayona investisiyaların cəlb edilməsi məqsədilə sahibkarlarla görüş keçirilib, müvafiq danışıqlar aparılır.

Hesabatda qeyd edildi ki, Prezidentin sərəncamı ilə "Kənd təsərrüfatı ili" elan edilmiş 2015-ci ildə rayonda 22 min 682 hektar sahədən 50 min tondan artıq taxıl əldə edilib ki, bu da dəmyə əkinçilik şəraitində yüksək bir göstəricidir. 2016-cı ilin məhsulu üçün rayonda 24 min 625 hektar sahədə əkin aparılıb ki, bundan 14 min 383 hektarını buğda təşkil edir. Qış fəslinin əlverişli keçməsi deməyə əsas verir ki, 2016-cı ildə rayonda daha bol məhsul istehsalına nail olunacaq.

Tarixən taxılçılığın toxumçuluq sahəsi üzrə böyük təcrübəsi olan Qobustanda bu gün də həmin məsələ daim diqqət mərkəzindədir. Hesabat ilində toxumluq məqsədilə 2039 hektar sahədə əkin aparılıb, 5 min 343 ton toxum istehsal edilib. İstehsal olunmuş taxıl toxumlarından 3 min 256 tonuna yüksək kondisiyalı taxıl toxumu sertifikatı verilib.

Rayonda ekoloji sağlamlığın qorunması, yaşıllaşdırma işlərinə də diqqət yetirilir. "IDEA" İctimai Birliyi tərəfindən həyata keçirilən I "Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində respublikanın şəhər və rayonlarında ötən ilin mart-aprel aylarında rayon üzrə 10 mindən artıq müxtəlif növ ağac əkilib.

Rayonda həyata keçirilən tikinti-quruculuq işləri barədə danışan natiq qeyd etdi ki, son beş ildə Qobustan rayonunda 2 şəhid ailəsi və 22 Qarabağ əlili mənzillə təmin oluub, 3 Qarabağ əlili üçün fərdi yaşayış evi tikilib. Hazırda 1 şəhid ailəsi və 2 Qarabağ əlili üçün fərdi yaşayış evinin tikintisi davam edir. Ümumilikdə 2015-ci ildə Qobustan rayonu üzrə 2 min 299 yeni iş yeri yaradılıb ki, bunlardan 170-i daimi iş yerləridir.

A.O.Çernyayevski adına 680 şagird yerlik 1 nömrəli şəhər məktəbi, R.Behbudov adına Uşaq İncəsənət Məktəbi yüksək səviyyədə əsaslı təmir edilərək istifadəyə verilib. Heydər Əliyev parkının bir hissəsi əsaslı təmir edilib, parka su xətti çəkilib.

Qobustan şəhəri üzrə nümayəndəlik yeni ikimərtəbəli binaya köçürülüb, Ərəbşalbaş kəndində ərazi nümayəndəsinin səyi ilə nümayəndəlik binası tikilib, şəhərdə isə daxili imkanlar hesabına 100 yerlik uşaq bağçasının tikintisi başa çatmış, son tamamlama işləri görülür. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Qobustan Kənd Təsərrüfatı İdarəsi üçün inzibati və laboratoriya binasının tikintisi başa çatdırılmış, son tamamlama işləri aparılır.

Manatın məzənnəsinin dəyişdirilməsi ilə əlaqədar istehlak bazarında baş verə biləcək sui-istifadə hallarının və süni qiymət artımının qarşısının alınması məqsədilə 21 dekabr 2015-ci ildən başlayaraq rayonda icra hakimiyyəti və aidiyyatı qurumların birgə iştirakı ilə bazar və satış mağazalarında əhalinin daha çox istehlak etdiyi məhsulların qiymətlərinin monitorinqi keçirilmiş, sahibkarlarla maarifləndirmə tədbirləri aparılmışdır. Baş verə biləcək sui-istifadə hallarının və süni qiymət artımının qarşısının alınması məqsədilə icra hakimiyyəti tərəfindən yaradılmış komissiya aidiyyatı orqanlarla birlikdə rayonun ticarət obyektlərində, kəndlərdə geniş maarifləndirmə və təbliğat işləri aparır. İcra hakimiyyəti başçısının iştirakı ilə rayonun bütün kəndlərini təmsil edən ağsaqqallarla, sahibkarlarla görüşlər keçirilir.

Prezidentin tapşırığına əsasən rayonda 2015-ci ildə əhalinin ümumi tibbi müayinəsi keçirilib, 36 min 737 nəfər vətəndaş tibbi müayinəyə cəlb edilib. Artıq bu il də təsdiq olunmuş qrafikə uyğun olaraq əhalinin ümumi tibbi müayinəsinə başlanılıb.

Prezident İlham Əliyevin diqqəti, xüsusən, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yaradılması nəticəsində artıq rayonun dayanıqlı elektrik enerjisi ilə təmin olunması istiqamətində çox böyük yenidənqurma işləri aparılıb, yeni transformatorların gətirilməsi, kabelləşməyə keçid insanlarda böyük inam yaradıb. Qısa müddət ərzində rayonun bir sıra kəndlərində elektrik təsərrüfatında əsaslı təmir işləri görülüb. Rayonun yaşayış məntəqələrinin qazlaşdırılması da uğurla davam etdirilir. Ötən il Poladlı və Yekəxana kəndlərinə ilk dəfə olaraq təbii qaz verilib. Artıq rayonun yaşayış məntəqələrinin 72,4 faizi, əhalinin isə 92,5 faizi təbii qazdan istifadə edir.

2015-ci il rayonun təhsil sahəsində də uğurlu bir il kimi yadda qalıb. Son illərdə rayonda təhsilə xüsusi diqqət və qayğı göstərilir. Rayonda mövcud olan 30 ümumtəhsil müəssisəsindən 17-si yenidən tikilib və ya əsaslı təmir olunub. Ötən il ali məktəblərə sənəd verən 154 məzundan 101 nəfəri respublikanın müxtəlif ali məktəblərinə qəbul olunub ki, bu da 2014-cü illə müqayisədə 33 nəfər çoxdur. 3 nəfər 600-dən yüksək, 11 nəfər isə 500-dən yüksək bal toplayaraq ali məktəblərə qəbul olunub. Prezidentin sərəncamı ilə şəhid Qalib Ələkbərov adına Çuxanlı kənd tam orta məktəbinin müəllimi Əmrağa Eyyubov "Əməkdar müəllim" fəxri adına layiq görülüb, şəhər 1 saylı tam orta məktəbin müəllimi Şahin Soltanov isə "Tərəqqi medalı" ilə təltif olunub.

A.Məmmədov fikirlərini ölkənin və rayonun həyatındakı ictimai-siyasi məzmunlu məsələlərə münasibət bildirməklə yekunlaşdırdı və dedi ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilib. Bu il Bakıda mötəbər beynəlxalq tədbir - Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu, BMT-nin fəal iştirakı və dəstəyi ilə keçirilən dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. Həmin tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin nüfuzunun göstəricisidir. Rayon ictimaiyyəti adından cənab Prezidenti əmin edirəm ki, verilmiş bütün tövsiyə və tapşırıqlar Qobustan rayonunda yüksək səviyyədə və vaxtında icra ediləcək, bu yolda rayon ictimaiyyəti ilə birlikdə bütün imkanlarımızı, bilik və bacarıqlarımızı səfərbər edəcəyik.

Yığıncaqda Prezident Administrasiyasının məsul işçisi Dəyanət Abdullayev çıxış edərək, dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrdən danışıb.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***